**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**№____**

# SOSİAL, İQTİSADİ İNKİŞAF

8

**YANVAR-AVQUST**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 8**
**13 sentyabr 2019-cu il**

# 2019-cu İLİN YANVAR-AVQUST AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2019-cu ilin yanvar-avqust aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 50,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın qeyri neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,0 faiz, neft-qaz sektorunda isə 1,6 faiz artmışdır.

Əlavə dəyərin 43,6 faizi sənayedə, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrində, 6,0 faizi tikintidə, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrində, 14,6 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 5145,1 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2019-cu ilin yanvar-avqust aylarında 30,9 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,0 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 15,2 faiz artmışdır.

Sənaye məhsulunun 70,0 faizi mədənçıxarma sektorunda, 25,1 faizi emal sektorunda, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi

isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda neft hasilatı 2,5 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 30,9 faiz artmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 2,2 dəfə, hazır metal məmulatlarının istehsalı 80,1 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 78,0 faiz, içkilərin istehsalı 44,9 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 35,8 faiz, tütün məmulatlarının istehsalı 32,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 30,7 faiz, mebel istehsalı 30,4 faiz, kağız və karton istehsalı 26,7 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 26,6 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 24,4 faiz, qida məhsullarının istehsalı 15,7 faiz, poliqrafiya məhsullarının istehsalı 12,0 faiz, maşın və avadanlıqların istehsalı 4,6 faiz, tikinti materiallarının istehsalı 4,2 faiz, geyim istehsalı 8,1 faiz, neft məhsullarının istehsalı 1,6 faiz artmış, əczaçılıq məhsullarının istehsalı 9,8 faiz, elektrik avadanlıqlarının istehsalı 11,1 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 14,3 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 16,1 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 16,4 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı isə 34,5 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 3,3 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 8,5 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 sentyabr 2019-cu il vəziyyətinə 472,6 milyon manatlıq hazır məhsul olmuşdur.

Hazırda **kənd təsərrüfatı** bitkilərinin yığımı davam edir. Sentyabr ayının 1-nə kimi dənlilərin və dənli paxlalı bitkilərin (qarğıdalısız) 1039,5 min hektar əkin sahəsinin 1031,5 min hektarı biçilmiş və həmin sahələrdən 3229,0 min ton və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,3 faiz çox məhsul

götürülmüşdür. Orta hesabla hər hektardan 31,3 sentner məhsul yığılmışdır. Bundan əlavə, məhsulu toplanmış 9,8 min hektar dən üçün qarğıdalı sahəsindən 57,5 min ton məhsul yığılmışdır.

Sentyabr ayının 1-nə kimi sahələrdən 1283,8 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 11,3 faiz çox tərəvəz, 703,8 min ton (9,5 faiz çox) kartof, 427,9 min ton (14,9 faiz çox) bostan məhsulları, 382,4 min ton (5,6 faiz çox) meyvə və giləmeyvə, 56,5 min ton (49,4 faiz çox) üzüm, 580,8 ton (16,4 faiz az) yaşıl çay yarpağı, 31,4 min ton (48,7 faiz çox) günəbaxan, 19,6 min ton (78,3 faiz az) şəkər çuğunduru, 164,8 ton (5,0 faiz çox) pambıq və 3,5 min ton (19,4 faiz çox) tütün yığılmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-avqust aylarında diri çəkidə ət istehsalı 3,0 faiz artaraq 332,6 min ton, süd istehsalı 1,5 faiz artaraq 1386,0 min ton, yumurta istehsalı 6,9 faiz artaraq 1242,2 milyon ədəd və yun istehsalı 1,5 faiz artaraq 15,4 min ton olmuşdur. Bundan başqa, ölkədə 643,7 ton və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,3 faiz çox barama istehsal olunmuşdur.

2018-ci ilin yanvar-avqust ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 6,2 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 9,2 faiz, heyvandarlıq məhsullarının istehsalı isə 3,1 faiz artmışdır.

2019-cu ilin yanvar-avqust aylarında **əsas kapitala** 8627,2 milyon manat məbləğində, yaxud 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz az vəsait yönəldilmişdir. Bu azalma neft-qaz sektoruna yatırılmış investisiyaların azalması ilə bağlı olmuş, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 5,7 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 5549,2 milyon manatı və ya 64,3 faizi məhsul istehsalı sahələrinə, 2242,7 milyon manatı (26,0 faizi) xidmət sahələrinə, 835,3 milyon manatı (9,7 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6098,3 milyon manatını və ya 70,7 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 5756,9 milyon manatı və ya 66,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

**Nəqliyyat** sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2019-cu ilin yanvar-avqust aylarında 154,4 milyon ton yük, 1303,8 milyon sərnişin daşınmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,7 faiz, sərnişin daşınması isə 1,9 faiz artmışdır. Yüklərin 65,7 faizi avtomobil, 25,4 faizi boru kəməri, 6,2 faizi dəmir yolu, 2,6 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

Sərnişinlərin 88,2 faizi avtomobil, 11,5 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 1397,2 milyon manatlıq xidmətlərin 72,5 faizi əhaliyə aid olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-avqust aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi dəyər ifadəsində 17,6 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 83,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2019-cu ilin yanvar-avqust aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 24175,2 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 5692,9 milyon manatlıq **ödənişli xidmət** göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,9 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 2,0 faiz artmış, ticarət şəbəkəsində 12218,1 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 11957,1 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla 2019-cu ilin yanvar-iyul aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 19932,8 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 11499,1 milyon dollarını və ya 57,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 8433,7 milyon dollarını (42,3 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 3065,4 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2018-ci ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 14,0 faiz, o cümlədən idxal üzrə

46,0 faiz artmış, ixrac üzrə isə 1,7 faiz azalmışdır. Real ifadədə dövriyyə 6,0 faiz, o cümlədən idxal 15,6 faiz, ixrac 1,2 faiz artmışdır.

2019-cu ilin yanvar-iyul aylarında qeyri neft-qaz məhsullarının ixracı 2018-ci ilin yanvar-iyul aylarına nisbətən faktiki qiymətlərlə 17,0 faiz, real ifadədə isə 12,8 faiz artaraq 1133,0 milyon dollar təşkil etmişdir.

2019-cu ilin yanvar-avqust aylarında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə **istehlak məhsullarının və xidmətlərin qiymətləri** 2,6 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 3,3 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 1,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 2,7 faiz artmışdır.

2019-cu ilin yanvar-iyul aylarında muzdla işləyənlərin **orta aylıq nominal əməkhaqqı** 2018-ci ilin müvafiq dövrünə nisbətən 8,4 faiz artaraq 587,7 manat təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-avqust aylarında **əhalinin gəlirləri** nominal ifadədə 6,4 faiz artaraq 36,9 milyard manat təşkil etmişdir.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2019-cu ilin yanvar-avqust aylarında **dövlət büdcəsinə** 14810,3 milyon manat vəsait daxil olmuş, büdcədən 14712,1 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 98,2 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2019-cu il avqust ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 13681,4 milyon manat təşkil etmiş, onun 11112,7 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 10,9 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2019-cu il avqust ayının 1-nə 8580,0 milyon manat təşkil etmişdir.

2019-cu ilin yanvar-avqust aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya –

1,92 manata, 100 Rusiya rubluna – 2,61 manata bərabər olmuşdur.

2019-cu ilin yanvar-iyul aylarında **əhalinin sayı** 46417 nəfər və ya 0,5 faiz artaraq 2019-cu il avqust ayının 1-i vəziyyətinə 10027874 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2019-cu ilin yanvar-avqust ayları, faktiki | 2019-cu ilin yanvar-avqust ayları 2018-ci ilin yanvar-avqust aylarına nisbətən, faizlə | Məlumat üçün 2018-ci ilin yanvar-avqust ayları 2017-ci ilin yanvar-avqust aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **50 875,7** | **102,4** | **100,7** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 30 383,1 | 103,0 | 100,9 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **5 145,1** | **101,5** | **99,8** |
| **Sənaye məhsulu, milyon manat** | **30 912,7** | **102,0** | **101,9** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 7 379,9 | 115,2 | 110,8 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **8 627,2** | **94,6** | **87,2** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 5 365,7 | 105,7 | 122,7 |
| ondan qeyri neft-qaz sənayesinə | 916,4 | 95,2 | 137,7 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **5 206,7** | **106,2** | **104,2** |
| o cümlədən: bitkiçilik | 2 649,7 | 109,2 | 105,8 |
| heyvandarlıq | 2 557,0 | 103,1 | 102,6 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **154,4** | **101,7** | **101,2** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1 303,8** | **101,9** | **101,3** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 397,2** | **117,6** | **107,6** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **24 175,2** | **102,9** | **102,7** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **5 692,9** | **102,0** | **102,8** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **14 810,3** | **105,2** | **130,5** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **14 712,1** | **109,1** | **119,1** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **98,2** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **36 861,6** | **106,4** | **109,1** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **3 727,8** | **105,5** | **108,1** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2019-cu il 01 avqust vəziyyətinə, milyon manat** | **8 580,0** | **106,6** | **117,3** |
| **Kredit qoyuluşları, 2019-cu il 01 avqust vəziyyətinə, milyon manat** | **13 681,4** | **112,4** | **94,6** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 487,4 | 83,5 | 98,3 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **587,7*** | **108,4**** | **103,7***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **102,6** | **102,7** |
| **Əhalinin sayı, 2019-cu il 01 avqust vəziyyətinə, min nəfər** | **10 027,9** | **100,9** | **100,9** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **19 932,8*** | **114,0**** | **135,6***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **106,0**** | **100,7***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 11 499,1* | 98,3** | 137,3*** |
| müqayisəli qiymətlərlə | x | 101,2** | 100,8*** |
| ondan **qeyri neft-qaz ixracı** | | | |
| faktiki qiymətlərlə | 1 133,0* | 117,0** | 113,5*** |
| müqayisəli qiymətlərlə | x | 112,8** | 103,8*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 8 433,7* | 146,0** | 132,2*** |
| müqayisəli qiymətlərlə | x | 115,6** | 100,5*** |

**Qeyd:**

* 2019-cu ilin yanvar-iyul ayları

** 2019-cu ilin yanvar-iyul ayları 2018-ci ilin yanvar- iyul aylarına nisbətən.

*** 2018-ci ilin yanvar- iyul ayları 2017-ci ilin yanvar- iyul aylarına nisbətən.

1) Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

# Ümumi Daxili Məhsul

2019-cu ilin yanvar-avqust aylarında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,4 faiz artaraq 50875,7 milyon manat təşkil etmişdir.

İqtisadiyyatın qeyri neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,0 faiz, neft-qaz sektorunda isə 1,6 faiz artmışdır.

ÜDM-in 43,6 faizi sənayedə, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrində, 6,0 faizi tikintidə, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrində, 14,6 faizi digər sahələrdə istehsal edilmiş, məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,9 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 5145,1 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-avqust | | 2019-cu ilin yanvar-avqust ayları 2018-ci ilin yanvar-avqust aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | 2019 | 2018* | |
| **Ümumi Daxili Məhsul** | **50875,7** | **50345,8** | **102,4** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2996,9 | 2739,4 | 106,2 |
| Sənaye | 22200,6 | 23289,9 | 102,9 |
| o cümlədən: mədənçıxarma sənayesi | 18955,7 | 20330,2 | 101,5 |
| emal sənayesi | 2636,1 | 2371,6 | 114,0 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 511,3 | 497,8 | 103,3 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 97,5 | 90,3 | 108,5 |
| Tikinti | 3037,2 | 3268,1 | 91,2 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 5216,3 | 4955,3 | 102,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 3250,4 | 3203,6 | 102,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1287,0 | 1212,1 | 104,6 |
| İnformasiya və rabitə | 923,0 | 785,1 | 117,6 |
| Digər sahələr | 7453,1 | 6854,9 | 101,8 |
| **Məhsula və idxala xalis vergilər** | **4511,2** | **4037,4** | **102,7** |
| **ÜDM-in deflyatoru** | **98,7** | **x** | **x** |

*) 2018-ci ilin aylıq göstəriciləri dövrün yekun məlumatları əsasında dəqiqləşdirilmişdir

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-avqust | | 2019-cu ilin yanvar-avqust ayları 2018-ci ilin yanvar-avqust aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | **2019** | **2018*** | |
| **Ümumi Daxili Məhsul** | **50875,7** | **50345,8** | **102,4** |
| o cümlədən: | | | |
| neft-qaz sektoru | 20492,6 | 21867,6 | 101,6 |
| qeyri neft-qaz sektoru | 30383,1 | 28478,2 | 103,0 |

*) 2018-ci ilin aylıq göstəriciləri dövrün yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



## Sənaye

2019-cu ilin yanvar-avqust aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 2,0 faiz artaraq 30,9 milyard manat təşkil etmişdir. Sənayenin qeyri neft-qaz sektorunda istehsal əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə 15,2 faiz, neft-qaz sektorunda isə 0,3 faiz artmışdır. Sənaye məhsulunun 70,0 faizi mədənçıxarma, 25,1 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 82,0 faiz olmuşdur. Ümumi istehsalın 89,1 faizi sənaye məhsullarının istehsalı, 10,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2018-ci il** | | |
| Yanvar | 102,6 | 101,5 |
| Fevral | 89,9 | 101,4 |
| Mart | 104,9 | 102,0 |
| Aprel | 98,8 | 100,9 |
| May | 110,8 | 100,7 |
| İyun | 100,6 | 101,0 |
| İyul | 95,4 | 100,7 |
| Avqust | 99,5 | 101,9 |
| Sentyabr | 94,1 | 102,0 |
| Oktyabr | 95,3 | 101,5 |
| Noyabr | 106,9 | 101,4 |
| Dekabr | 103,8 | 101,5 |
| **2019-cu il** | | |
| Yanvar | 104,4 | 103,4 |
| Fevral | 92,1 | 104,6 |
| Mart | 103,1 | 104,4 |

…ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| Aprel | 90,7 | 102,2 |
| May | 118,1 | 102,2 |
| İyun | 99,2 | 101,8 |
| İyul | 99,3 | 102,2 |
| Avqust | 95,8 | 102,0 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 sentyabr 2019-cu il vəziyyətinə 472,6 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 0,6 faizi Naxçıvan Muxtar Respublikasının, 47,9 faizi Bakı, 27,2 faizi Gəncə, 6,4 faizi Sumqayıt, 4,5 faizi Şirvan, 0,1 faizi Mingəçevir şəhərlərinin, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 77,1 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 21,6 milyard manat olmaqla, əvvəlki ilin yanvar-avqust aylarına nisbətən 0,3 faiz artmışdır.

Sahənin əsas məhsulu olan xam neftin əmtəəlik hasilatı 25,1 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 15,9 milyard kub metr təşkil etmişdir. Neft hasilatı 2,5 faiz azalmış, qaz hasilatı isə 30,9 faiz artmışdır.

Cədvəl 5

## Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 25 172,9 | 97,6 | 173,2 |
| ondan əmtəəlik | 25 119,8 | 97,5 | 173,2 |
| Təbii qaz, milyon kub metr | 23 074,1 | 118,1 | - |
| ondan əmtəəlik | 15 864,9 | 130,9 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis filizləri və konsentratları, ton | 1 302,0 | 149,0 | 447,0 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 4 866,1 | 113,0 | 282,0 |
| o cümlədən : qızıl | 2 405,5 | 107,2 | 154,6 |
| gümüş | 2 460,6 | 119,3 | 127,4 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| Tikinti qumu, min ton | 560,8 | 81,8 | 4,6 |
| İnşaat üçün əhəng daşı, min ton | 182,7 | 128,1 | - |
| Çınqıl, qırmadaş, xırda çay daşı, min ton | 546,7 | 47,7 | 3,9 |
| Duz, min ton | 46,7 | 110,2 | 0,2 |
| Bentonit, min ton | 168,7 | 127,0 | 189,6 |
| ondan əmtəəlik | 156,0 | 127,0 | 189,6 |
| Gips və anhidrit, min ton | 200,3 | 108,4 | 12,4 |

Qrafik 2

## Neft və qaz hasilatının aylar üzrə dinamikası




## Emal sənayesi

Emal sənayesində yanvar-avqust aylarında 7553,2 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 6

### Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2018-ci il** | | |
| Yanvar | 101,7 | 102,7 |
| Yanvar-fevral | 99,6 | 99,9 |
| Yanvar-mart | 104,3 | 106,9 |
| Yanvar-aprel | 105,3 | 108,0 |
| Yanvar-may | 106,1 | 109,0 |
| Yanvar-iyun | 108,6 | 111,8 |
| Yanvar-iyul | 109,4 | 113,7 |
| Yanvar-avqust | 111,9 | 114,2 |
| Yanvar-sentyabr | 112,1 | 113,5 |
| Yanvar-oktyabr | 110,1 | 112,5 |
| Yanvar-noyabr | 107,6 | 110,6 |
| Yanvar-dekabr | 108,0 | 110,8 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2019-cu il** | | |
| Yanvar | 111,9 | 120,3 |
| Yanvar-fevral | 115,3 | 122,6 |
| Yanvar-mart | 115,4 | 122,2 |
| Yanvar-aprel | 112,3 | 119,9 |
| Yanvar-may | 113,0 | 120,5 |
| Yanvar-iyun | 113,5 | 120,7 |
| Yanvar-iyul | 114,5 | 120,8 |
| Yanvar-avqust | 114,0 | 120,0 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 7

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir, min manat* | 2018-ci ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **7 753 197,8** | **114,0** |
| o cümlədən: qida məhsullarının istehsalı | 2 258 583,8 | 115,7 |
| içki istehsalı | 319 823,0 | 144,9 |
| tütün məmulatlarının istehsalı | 77 448,8 | 132,2 |
| toxuculuq sənayesi | 178 479,0 | 135,8 |
| geyim istehsalı | 78 237,9 | 108,1 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 13 937,0 | 83,6 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 58 197,2 | 224,2 |
| kağız və karton istehsalı | 69 410,1 | 126,7 |
| poliqrafiya məhsullarının istehsalı | 81 300,7 | 112,0 |
| neft məhsullarının istehsalı | 2 139 850,1 | 101,6 |
| kimya sənayesi | 426 851,0 | 130,7 |
| əczaçılıq məhsullarının istehsalı | 1 355,1 | 90,2 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 254 786,3 | 124,4 |
| tikinti materiallarının istehsalı | 517 057,5 | 104,2 |
| metallurgiya sənayesi | 339 524,8 | 83,9 |
| hazır metal məmulatlarının istehsalı | 156 563,2 | 180,1 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 47 109,3 | 178,0 |
| elektrik avadanlıqlarının istehsalı | 105 669,9 | 88,9 |
| maşın və avadanlıqların istehsalı | 130 866,4 | 104,6 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 67 783,5 | 65,5 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 5 565,2 | 85,7 |
| mebellərin istehsalı | 61 638,4 | 130,4 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 53 068,0 | 115,3 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 310 091,7 | 126,6 |

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

Əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə içki istehsalında 44,9 faiz, tütün məmulatlarının istehsalında 32,2 faiz, qida məhsullarının istehsalında isə 15,7 faiz artım müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından qənd və şəkər tozu istehsalı 77,8 faiz, kolbasa məmulatları 46,5 faiz, qaymaq və xama istehsalı 21,7 faiz, cem və marmeladların istehsalı 12,5 faiz, üzlü süd istehsalı 2,8 faiz, alkoqolsuz içkilərin istehsalı 15,5 faiz artmışdır.

Cədvəl 8

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2018-ci il** | | | |
| Yanvar | 99,0 | 75,2 | 2,8 d. |
| Yanvar-fevral | 93,3 | 81,0 | 3,4 d. |
| Yanvar-mart | 92,8 | 96,9 | 2,8 d. |
| Yanvar-aprel | 94,9 | 96,4 | 2,7 d. |
| Yanvar-may | 94,9 | 95,5 | 2,6 d. |
| Yanvar-iyun | 96,9 | 105,6 | 3,4 d. |
| Yanvar-iyul | 97,6 | 109,0 | 2,9 d. |
| Yanvar-avqust | 99,0 | 109,3 | 2,6 d. |
| Yanvar-sentyabr | 99,4 | 111,4 | 2,5 d. |
| Yanvar-oktyabr | 100,0 | 110,6 | 2,5 d. |
| Yanvar-noyabr | 101,0 | 108,3 | 2,2 d. |
| Yanvar-dekabr | 101,3 | 112,2 | 2,7 d. |
| **2019-cu il** | | | |
| Yanvar | 114,3 | 148,9 | 66,5 |
| Yanvar-fevral | 123,2 | 163,4 | 67,9 |
| Yanvar-mart | 126,8 | 178,8 | 107,2 |
| Yanvar-aprel | 121,8 | 157,1 | 121,1 |
| Yanvar-may | 120,5 | 159,8 | 114,9 |
| Yanvar-iyun | 120,0 | 165,2 | 114,2 |
| Yanvar-iyul | 118,3 | 152,2 | 125,1 |
| Yanvar-avqust | 115,7 | 144,9 | 132,2 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 9

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin istehsalı**

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Ət (quş əti daxil olmaqla), min ton | 213,2 | 102,7 | - |
| Kolbasa məmulatları, ton | 5 191,7 | 146,5 | 3,2 |
| Üzlü süd, min ton | 630,2 | 102,8 | - |
| Qaymaq və xama, ton | 3 857,6 | 121,7 | - |
| Pendir və kəsmik, ton | 33 960,5 | 101,9 | 49,8 |
| Kərə yağı, ton | 15 743,6 | 99,5 | 3,7 |
| Cem və marmeladlar, ton | 56 405,5 | 112,5 | 7 045,1 |
| Duru bitki yağları, ton | 33 244,0 | 97,3 | 1 322,4 |
| Marqarin, ton | 28 426,3 | 91,4 | - |
| İnsanın qidalanması üçün yararlı olan duz, min ton | 45,0 | 110,3 | 1,4 |
| Qənd və şəkər tozu, min ton | 190,1 | 177,8 | 13,8 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 837,6 | 101,7 | - |

…ardı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **İçki məhsulları** | | | |
| Şampan şərabı, min dkl | 0,5 | 50,0 | 3,1 |
| Araq, min dkl | 1 223,9 | 4,1 d. | 170,1 |
| Brendi (konyak), min dkl | 13,5 | 113,4 | 11,7 |
| Üzüm şərabı, min dkl | 403,2 | 41,3 | 1 004,1 |
| Pivə, min dkl | 3 720,0 | 103,2 | 267,8 |
| Likörlar, min dkl | 181,9 | 2,7 d. | 24,5 |
| Alkoqolsuz içkilər, min dkl | 19 270,1 | 115,5 | 589,2 |
| **Tütün məmulatları** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 3 467,5 | 2,1 d. | 1 064,0 |
| Papiros və siqaretlər, milyon ədəd | 3 237,0 | 137,0 | 1,1 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 270,7 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə toxuculuq sənayesində 35,8 faiz, geyim istehsalında 8,1 faiz artım, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında isə 16,4 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 10

### Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2018-ci il** | | | |
| Yanvar | 173,9 | 47,7 | 3,2 d. |
| Yanvar-fevral | 165,8 | 51,7 | 4,7 d. |
| Yanvar-mart | 153,2 | 74,8 | 185,1 |
| Yanvar-aprel | 162,6 | 112,0 | 191,4 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| Yanvar-may | 161,4 | 111,4 | 195,6 |
| Yanvar-iyun | 164,1 | 110,3 | 156,9 |
| Yanvar-iyul | 164,2 | 100,7 | 154,4 |
| Yanvar-avqust | 163,0 | 100,5 | 154,0 |
| Yanvar-sentyabr | 153,3 | 101,6 | 142,7 |
| Yanvar-oktyabr | 148,8 | 100,0 | 135,6 |
| Yanvar-noyabr | 142,4 | 97,9 | 128,3 |
| Yanvar-dekabr | 142,4 | 98,3 | 123,3 |
| **2019-cu il** | | | |
| Yanvar | 156,9 | 67,7 | 101,5 |
| Yanvar-fevral | 149,6 | 72,9 | 60,2 |
| Yanvar-mart | 161,4 | 71,1 | 64,0 |
| Yanvar-aprel | 148,1 | 110,2 | 70,5 |
| Yanvar-may | 147,4 | 99,9 | 72,3 |
| Yanvar-iyun | 151,2 | 103,3 | 102,0 |
| Yanvar-iyul | 140,9 | 105,6 | 88,6 |
| Yanvar-avqust | 135,8 | 108,1 | 83,6 |

Cədvəl 11

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq lifi, ton | 50 420,6 | 152,1 | 5 110,7 |
| Hazır pambıq parçalar, min kv.m | 12 072,9 | 108,2 | 1 200,5 |
| Pambıq iplik, ton | 22 207,2 | 139,2 | 1 619,9 |
| ondan əmtəəlik | 22 207,2 | 141,7 | 1 619,9 |
| Pambıq yataq ağları, min ədəd | 475,1 | 162,3 | 1,9 |
| Xalça və xalça məmulatları, kv.m | 1 832,0 | 191,9 | 2 898,8 |

…ardı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Geyim istehsalı** | | | |
| Üst trikotaj, min ədəd | 86,1 | 70,2 | 1,9 |
| Alt trikotaj, min ədəd | 369,5 | 136,8 | 24,9 |
| Corab məmulatları, min cüt | 1 764,3 | 114,6 | 5,5 |
| Kişi və ya oğlanlar üçün pambıqdan və ya kimyəvi liflərdən hazırlanan istehsalat və peşə komplektləri, min ədəd | 353,6 | 177,4 | 4,5 |
| Kişi və ya oğlanlar üçün pambıqdan və ya kimyəvi liflərdən hazırlanan istehsalat pencəkləri və bleyzerləri, ədəd | 1 670 | 0,9 | 4 370 |
| Qadın və ya qızlar üçün kostyum və komplektlər, ədəd | 1 438 | 57,6 | - |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Dəri, min kv.m | 39,6 | 96,4 | 140,0 |
| Aşılanmış xəz dərilər, min kv.m | 30,4 | 27,1 | 30,4 |
| Ayaqqabı, min cüt | 128,8 | 76,5 | 20,0 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 2139,9 milyon manat olmaqla əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə 1,6 faiz artmışdır. Neft məhsullarından sürtkü yağlarının, neft bitimunun, ağ neftin, neft koksunun istehsalı azalmış, avtomobil benzininin, yanacaq mazutunun, dizel yanacağının, neft-kimya sənayesində istifadə üçün benzinin istehsalı artmışdır.

Cədvəl 12

**Neft məhsullarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 818,2 | 101,4 | 25,8 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 184,6 | 121,9 | - |
| Ağ neft, min ton | 406,2 | 97,2 | 61,4 |
| Dizel yanacağı, min ton | 1 450,2 | 106,5 | 94,4 |
| Yanacaq mazutu, min ton | 76,8 | 150,9 | 6,4 |
| Sürtkü yağları, min ton | 13,4 | 15,5 | 10,9 |
| Neft bitumu, min ton | 163,1 | 84,7 | 18,2 |
| Neft koksu, min ton | 168,5 | 97,1 | 15,6 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 683,0 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı kimya sənayesində 30,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında 24,4 faiz artmış, əczaçılıq məhsullarının istehsalında isə 9,8 faiz azalmışdır.

Əsas kimya məhsullarından lak-boya məmulatlarının istehsalı 81,9 faiz, propilen istehsalı 62,7 faiz, etilen istehsalı 16,4 faiz, yod istehsalı 5,6 faiz, polietilen istehsalı 3,1 faiz artmışdır. Plastik boruların istehsalı 6,7 dəfə, butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatların istehsalı 2,9 dəfə artmışdır.

Cədvəl 13

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2018-ci il** | | | |
| Yanvar | 98,7 | 3,1 d. | 71,7 |
| Yanvar-fevral | 106,3 | 2,0 d. | 55,1 |
| Yanvar-mart | 106,2 | 78,1 | 59,5 |
| Yanvar-aprel | 101,6 | 78,0 | 66,9 |
| Yanvar-may | 99,2 | 103,7 | 71,7 |
| Yanvar-iyun | 100,4 | 100,3 | 80,7 |
| Yanvar-iyul | 98,7 | 101,2 | 88,0 |
| Yanvar-avqust | 101,0 | 120,2 | 90,4 |
| Yanvar-sentyabr | 107,8 | 96,4 | 97,2 |
| Yanvar-oktyabr | 103,8 | 87,1 | 100,1 |
| Yanvar-noyabr | 98,5 | 82,9 | 106,2 |
| Yanvar-dekabr | 101,4 | 84,9 | 114,0 |
| **2019-cu il** | | | |
| Yanvar | 135,4 | 75,6 | 163,3 |
| Yanvar-fevral | 133,2 | 126,8 | 164,0 |
| Yanvar-mart | 132,6 | 144,0 | 159,3 |
| Yanvar-aprel | 131,2 | 154,2 | 128,7 |
| Yanvar-may | 130,4 | 116,8 | 132,8 |
| Yanvar-iyun | 130,4 | 105,7 | 130,8 |
| Yanvar-iyul | 130,4 | 101,3 | 127,2 |
| Yanvar-avqust | 130,7 | 90,2 | 124,4 |

Qrafik 5

## Kimya sənayesi məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Azot, min kub m | 15 218,7 | 94,6 | 59,8 |
| ondan əmtəəlik | 696,0 | 44,8 | 59,8 |
| Yod, ton | 127,2 | 105,6 | 3,3 |
| Oksigen, min kub m | 2 280,7 | 67,1 | 43,4 |
| ondan əmtəəlik | 2 237,9 | 68,6 | 43,4 |
| Propilen, min ton | 67,7 | 162,7 | 2,2 |
| ondan əmtəəlik | 67,5 | 192,6 | 2,2 |
| Polietilen, min ton | 76,7 | 103,1 | 6,6 |
| Etilen, min ton | 89,2 | 116,4 | - |
| Metanol (metil spirti), min ton | 277,4 | 3,2 d. | 22,5 |
| Lak-boya məmulatları, ton | 15 654,9 | 181,9 | 1 628,1 |
| Sair üzvi kompozisiya həllediciləri və durulaşdırıcıları, ton | 16 710,8 | 155,7 | 50,4 |

…ardı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 6 640,8 | 96,5 | 3 977,4 |
| Bərk polipropilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 2 211,1 | 93,2 | 211,6 |
| Məsaməli polistirol lövhələr və zolaqlar, ton | 863,3 | 118,2 | - |
| Butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 9 841,0 | 2,9 d. | 3 970,2 |
| Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton | 481,8 | 6,7 d. | 163,8 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat | 27,4 | 63,3 | 15,7 |
| Tərkibində qarışıq və ya xalis məhsullar olan, digər qruplara daxil edilməyən, pərakəndə satış üçün qablaşdırılan sair dərmanlar, min manat | 319,8 | 74,4 | 131,4 |

**Tikinti materiallarının istehsalı** sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri 4,2 faiz artaraq 517,1 milyon manat təşkil etmişdir. Tikinti kərpicinin istehsalı 47,7 faiz, tikinti əhənginin istehsalı 54,0 faiz, hörmə üçün hazır beton qarışığının istehsalı 16,9 faiz artmış, sementin istehsalı 1,1 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 54,8 faiz, tikinti gipsinin istehsalı 81,6 faiz azalmışdır.

Qrafik 6

## Tikinti materiallarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

## Tikinti materiallarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sement, min ton | 2225,3 | 98,9 | 73,2 |
| Tikinti gipsi, min ton | 7,0 | 18,4 | 2,4 |
| ondan əmtəəlik | 6,9 | 96,2 | 2,4 |
| Tikinti əhəngi, min ton | 30,1 | 154,0 | 2,7 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton | 67,9 | 122,2 | 45,1 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 29,2 | 45,2 | 5,5 |
| Asfalt, min ton | 207,4 | 104,5 | - |
| Tikinti kərpici, min kub metr | 276,2 | 147,7 | 16,2 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 1118,6 | 116,9 | - |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 23917,4 | 120,5 | 352,0 |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində yanvar-avqust aylarında 496,1 milyon manatlıq məhsul istehsal olunmuş, hazır metal məmulatlarının istehsalı sahəsində 80,1 faiz artım, metallurgiya sənayesində 16,1 faiz azalma müşahidə olunmuşdur. Dövr ərzində sahə üzrə 15556,4 ton (3,1 dəfə çox) qara metallardan sair konstruksiyalar istehsal edilmişdir.

Cədvəl 16

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2018-ci il** | | |
| Yanvar | 96,2 | 181,5 |
| Yanvar-fevral | 90,0 | 167,0 |
| Yanvar-mart | 111,5 | 246,4 |
| Yanvar-aprel | 114,2 | 219,9 |
| Yanvar-may | 118,4 | 204,1 |
| Yanvar-iyun | 115,0 | 164,1 |
| Yanvar-iyul | 114,3 | 128,2 |
| Yanvar-avqust | 113,4 | 118,2 |
| Yanvar-sentyabr | 115,7 | 107,4 |
| Yanvar-oktyabr | 113,3 | 98,8 |
| Yanvar-noyabr | 116,3 | 75,1 |
| Yanvar-dekabr | 111,4 | 72,6 |
| **2019-cu il** | | |
| Yanvar | 83,9 | 74,6 |
| Yanvar-fevral | 91,1 | 87,6 |
| Yanvar-mart | 86,1 | 77,4 |
| Yanvar-aprel | 83,3 | 104,8 |
| Yanvar-may | 81,6 | 121,1 |
| Yanvar-iyun | 81,8 | 147,1 |
| Yanvar-iyul | 82,4 | 159,2 |
| Yanvar-avqust | 83,9 | 180,1 |

Cədvəl 17

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 226,2 | 81,4 | 2,8 |
| Armatur, min ton | 200,8 | 94,4 | 5,5 |
| Polad borular, min ton | 22,2 | 62,5 | - |
| Paslanmayan poladdan dəstə şəklində katankalar (girdə çubuqlar), ton | 5 695,1 | 132,9 | 201,5 |
| Emal edilməmiş alüminium ərintiləri, ilkin şəkildə, min ton | 24,2 | 92,1 | 6,3 |
| Alüminium çubuqlar, millər və profillər, ton | 439,6 | 96,4 | 146,2 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Qara metallardan yığma tikinti konstruksiyaları, min manat | 17 872,2 | 176,9 | 98,2 |
| Qara metallardan sair konstruksiyalar, ton | 15 556,4 | 3,1 d. | 5 659,0 |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 2 946,8 | 40,5 | - |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 152,8 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə elektrik avadanlıqlarının istehsalı 11,1 faiz azalmış, kompüter, elektron və optik məhsulların istehsalı isə 78,0 faiz artmışdır. Dövr ərzində əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatların istehsalı 10,2 dəfə, məişət soyuducularının istehsalı 31,4 faiz artmışdır.

Cədvəl 18

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2018-ci il** | | |
| Yanvar | 76,8 | 77,7 |
| Yanvar-fevral | 93,9 | 143,4 |
| Yanvar-mart | 81,7 | 137,4 |
| Yanvar-aprel | 93,9 | 198,5 |
| Yanvar-may | 94,3 | 196,2 |
| Yanvar-iyun | 89,4 | 184,1 |
| Yanvar-iyul | 89,3 | 303,8 |
| Yanvar-avqust | 90,4 | 298,9 |
| Yanvar-sentyabr | 89,9 | 252,3 |
| Yanvar-oktyabr | 95,3 | 244,7 |
| Yanvar-noyabr | 90,3 | 212,2 |
| Yanvar-dekabr | 97,5 | 246,4 |
| **2019-cu il** | | |
| Yanvar | 137,1 | 125,9 |
| Yanvar-fevral | 137,8 | 76,0 |
| Yanvar-mart | 105,0 | 85,0 |
| Yanvar-aprel | 85,8 | 102,6 |
| Yanvar-may | 91,2 | 92,1 |
| Yanvar-iyun | 110,0 | 92,0 |
| Yanvar-iyul | 155,4 | 92,5 |
| Yanvar-avqust | 178,0 | 88,9 |

Cədvəl 19

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2019-cu ilin yanvar-avqust aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.09.2019-cu il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazlar, ədəd | 127 967 | 168,9 | 50 |
| Avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatlar, ədəd | 11 250 | 10,2 d. | 90 |
| Qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatları, ədəd | 8 800 | 129,4 | 680 |
| Elektrik paylayıcı və nəzarət cihazlarının hissələri, ədəd | 25 098,3 | 26,2 | - |
| 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqilləri, ton | 1 149,3 | 55,5 | 3 371,2 |
| 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, ton | 623,5 | 83,1 | 4 073,9 |
| Məişət soyuducuları, ədəd | 1 185 | 131,4 | 757 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 204,2 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 4,6 faiz artmış, sair nəqliyyat vasitələrinin istehsalı 14,3 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı isə 34,5 faiz azalmışdır. Dövr ərzində 863 ədəd traktor, 1496 ədəd minik avtomobili istehsal olunmuş, fəvvarə armaturunun istehsalı 29,9 faiz, ştanqlı quyu nasoslarının istehsalı 54,5 faiz, mancanaq dəzgahlarının istehsalı 20,1 faiz artmışdır.

Cədvəl 20

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin Istehsalı |
| **2018-ci il** | | | |
| Yanvar | 71,0 | - | 32,9 |
| Yanvar-fevral | 72,5 | - | 27,3 |
| Yanvar-mart | 127,2 | - | 33,9 |
| Yanvar-aprel | 94,4 | 8,8 d. | 36,0 |
| Yanvar-may | 90,1 | 16,1 d. | 37,5 |
| Yanvar-iyun | 93,3 | 16,6 d. | 37,3 |
| Yanvar-iyul | 84,8 | 31,3 d. | 37,6 |
| Yanvar-avqust | 84,0 | 32,0 d. | 38,3 |
| Yanvar-sentyabr | 86,8 | 27,4 d. | 36,0 |
| Yanvar-oktyabr | 82,3 | 26,5 d. | 34,4 |
| Yanvar-noyabr | 75,6 | 29,1 d. | 33,3 |
| Yanvar-dekabr | 80,9 | 31,0 d. | 32,7 |
| **2019-cu il** | | | |
| Yanvar | 2,1 d. | 2,9 d. | 111,9 |
| Yanvar-fevral | 180,8 | 3,0 d. | 95,5 |
| Yanvar-mart | 113,2 | 185,6 | 102,6 |
| Yanvar-aprel | 112,1 | 176,7 | 95,8 |
| Yanvar-may | 115,8 | 163,9 | 98,2 |
| Yanvar-iyun | 110,0 | 183,6 | 101,8 |
| Yanvar-iyul | 113,6 | 71,7 | 92,5 |
| Yanvar-avqust | 104,6 | 65,5 | 85,7 |

Cədvəl 21

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobillərin istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

